Burnu yerlə sürünsün, sonra burnu yerlə sürünsün sonra burnu yerlə sürünsün" Deyildi: "Kimin, ey Allahın Rəsulu?" Dedi: “Ata-anasından birinə və ya hər ikisinə yaşlı vaxtına yetişən və Cənnətə daxil olmayan kəsin”

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Burnu yerlə sürünsün, sonra burnu yerlə sürünsün sonra burnu yerlə sürünsün" Deyildi: "Kimin, ey Allahın Rəsulu?" Dedi: “Ata-anasından birinə və ya hər ikisinə yaşlı vaxtına yetişən və Cənnətə daxil olmayan kəsin”.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) üç dəfə təkrarlayaraq -(bir insan üçün) zillət və rüsvayçılıqla bəddua etdi, sanki onun burnunu torpağa soxdu. Və ondan soruşdular: "Əleyhinə bəddua etdiyin bu şəxs kimdir ey Allahın Rəsulu?" Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Hər kim ata-anasına – onlardan birinə və ya hər ikisinə– yaşlı vaxtlarında yetişərsə və onlar, onun Cənnətə girməsinə səbəb olmazsa; bu da, onlara qarşı gözəl davranmamasına və onlara itaət etmədiyinə görədir.

http://sunnah.global/hadeeth/az/show/3718